

DEBÜT

# Firudin HƏMİDLİ

***

Bir kəpənək doğulur, sapsarı...
Tələşsız, durğun baxışlarından
gəlir, qonur əllərimin kölgəsinə.
Qarışır gül nəfəsi
nimdaş ümidlərimə...

Sən ki bir dənizsən,
Gizlənmisən öz-özünün sularında,
Gizlətmisən mənim doğma şəhərimi də...

Buludların qədimi pıçıltılarında,
duyuram, adın keçir,
adın oxunur fərəhlə...
Üfüqün ardına boylanıram,
orda yağış yağır gülüşlərindən...

yolum düşür
Gecənin əndişə sarayına,
Görürəm,
sükutun qaçaqaçdadır...

Səma köks ötürə,
bir ulduz ah çəkə,
Torpaq qımıldana nagah.
Çırpınır qanadların –
onların göz yaşıyla
təmizlənir kədərim,
gözəlləşir kədərim...

Sən ki bir gül çöhrəsisən,
umulmaz qatarın pəncərəsindən
gülə-gülə ötüb keçən...

***

Yanmış sarayının bir köşəsində
ümidə sığınıb ağlayır gecə –
Ona işığını qaytarmalıyam...

Bütün yaddaşını itirmiş sükut,
düşdüyü dalanda döyür gözünü...
Onu öz evinə aparmalıyam...

Mübhəm bir yoxluğun qaranlığında
qədimcə bir gülə qısılmısan sən –
Səni ömrüm boyu axtarmalıyam...

***

Tənha bir aynayam...
Unutmuşam,
necəydi bir insan çöhrəsi?
İnsanları
üfüq kimi xatırlayıram...

Sınıq bir aynayam...
Baxsan,
kəm görərsən özünü, gülüm...

Ümidsiz və qorxmuş bir aynayam –
Heç vaxt ölməyəcəm
insanlar kimi.

***

Bir röyanın kölgəsini
sovurur küçədə külək...
Bir buluda çatmaq ümidini
yuyub aparır yağış...
Hardayam?..
Hardasan?..

Səni ki mən
ummadığım duraqlarda görürəm...

Bax, işıq fəryad edir
məhbəsində zamanın...
Gerçəyin surətindən
yorulub xəyallarım;
Sənin qanadlarına
qısılmışam...
Hardasan?

Ruhunla ətirlənib sükut,
Gözlərini üşüdür qaranlıq,
əllərini axtarır şəhər...
Qanayır, durmadan qanayır
keçmişin nəğmələri,
Ağlayır şəhərin bütün döngələri...
Qərq olacam
bu göz yaşı
və qan quraqlığında...
Sənin qanadlarına
qısılmışam,
Hardasan?..

Əsrin aynalarının kirli qəhqəhəsindən,
İzdihamın qaranlıq, istehzalı səsindən
sığınıb gözlərinə
gül qoxan əsrlərin dumduru göz yaşları...
Fəqət, əfsus,
səni ki mən
ummadığım duraqlarda görürəm...

Ulduz.- 2019.- №5.- S.76-77.